ədalət.- 2022.- 16 aprel.- S.6.

Əbülfət MƏDƏTOĞLU

Xəyallarımıza qanad olan fikir tutumu

Bir şeirin fonunda

Hər bir fikrin söykəndiyi nöqtə var, məqam var və yaxud da hər bir fikir nəyəsə, harasa söykənib ordan qaynaqlanır. Bu mənada, fikrin tutumu da, çəkisi də həmin o söykəndiyi, başladığı nöqtədən asılı olur. Deməli, tutumlu, çəkili fikir də adamı, dinləyicini, oxucunu özünə çəkir. Çünki o fikirin çəkisi həm də bir maqnit gücündədi, cəlb etmək qabiliyyəti var onda...

Bax, bu aspektdən yanaşanda, üstündə durduğun nöqtənin verdiyi imkandan çıxış edəndə onda mənzərə demək olar ki, göz önündə canlanmaqla yanaşı, həm də üfiq kimi parlaq olur. Bunun da səbəbi yenə həmin nöqtəyə qayıdıram ki, fikrin tutumundan asılıdırki, Ooda gətirib aydınlığa qovuşdurur səni...

Bax, indi baş-başa qaldığım kiçik bir şeir mənim o söylədiyim fikir tutumundan aydınlığa gedən yolun bir işartısı, bir cizgisidi. İstəsəniz mənə qoşulub bu yolla, bu cığırla, bu cizginin ipucundan tutub siz də gələ bilərsiniz və onda görərsiniz ki, şairin yaratdığı mənzərənin fikir tutumu hansı ölçüdə, çəkidə, hansı təsir gücündədir. Axı:

Bu dənizin sularını
balıqlarından başqa
içən olmadı.

İndi özünüz düşünün. Dənizin suyunu necə içmək olar? Bu, mümkündürmü? Doğrudu, müasir imkanlar bunu mümkün edir. Amma söhbət sırf, çılpaq məntiqdən gedir. Həmin məntiq də göstərir ki, dənizin suyunu balıqlardan başqa və bir də dənizdə yaşayan canlılardan başqa içən yoxdu. Amma bunu şeir kimi oxucuya demək, ilk baxışda nə qədər adi görünsə də, fikrin alt qatına enəndə artıq ləpələrin xışıltısı eşidilməyə başlayır və həmin vaxtda mənim yadıma yazdığım bu misralar düşür:

Balıqçılar -,
balıq çıxar! -
deyib, suya tor atdılar, -
bu gün...

Görürsünüz, burda da bir sadə mənzərədi, deyimdi. Oxucu da bu sadəliyə ilk baxışda ironik bir gülüş bağışlaya bilər və hətta söyləyər ki, nə var ki, burda qeyri-adi?! Lakin...

Lakin dəniz suyunun balıqların içdiyini söyləyən şair həmin an ortaya artıq poetik məntiq qoyur və yazır ki:

Keçən olmadı bir daha
bu dağ yollarını -
yollar cığıra döndü.

İndi özünüz bir daha əlinizi qaşınızın üstünə qoyub baxın. Və baxa-baxa da düşünüb müqayisəli şəkildə bir gerçəyi təxmin etməyə çalışın. Suyunu balıqlar içən dənizlə cığıra dönən yolların paralelliyini. Axı burda da bir nüans var. Adətən cığırlar böyüyüb yollara çevrilir. Bu şeirdə isə dağ yolları kiçilib cığır olubdur. Çünki gediş-gəliş yoxdur, seyrəlibdi və dənizin suyu təkcə balığın ümidinə qaldığı kimi, yolun da ümidi təkəm seyrək gəlib-gedənlərə qalıb. Onda mən də bir anlıq həmin o dənizin sahilinə qayıdıram:

Balıqçılar tor atmaqla
balıqların
sabahını qaraltdılar -
nəfs üçün...

Yenə məntiqə üz tuturuq. Nəfsinə görə balıqların üzərinə basqıya gedən, onları ovlayan balıqçı ilə cığıra dönən yolun bir baxış bucağına düşməsi sizi təəccübləndirməsin. Çünki nəfsini özündən aşağıda görən balıqçı da var. O da torda çabalayan kiçik, xırda balıqları qaytarıb dənizə atır. Və beləcə o dənizdə balıqların yaşamasına, yəni hardasa cığırın yol olmasına o da bu cür xidmət göstərir. Bu prosesin davamında yenə şairin fikirləri boy göstərir:

Bir azdan cığırlar da
qaldılar çığıra-çığıra.
Bir azdan
onların da batdı səsləri,
bu dənizin sularında ay batan kimi.

Görürsünüzmü, suyunu balıqlar içən dənizlə yoldan cığıra çevrilən həmin o insan izinin paralelliyinin kəsişmə nöqtəsini ? Bu vurguladığımız nöqtədə cığırların çığırtısı elə dənizdən çıxarılan balıqların çığırtısı ilə həmahəngdir. Amma ayın sularda batması o çığırtılara hər iki tərəfin cazibə qüvvəsi ilə bir son verir. Ay batırsa dəniz suyunu içən balıq da, çığıran cığır da sonuna yaxınlaşmış olur. Və mən onda deyirəm ki:

Balıqçılar,
tor atmazdan,
balıqların
sabahını
qaraltmazdan -
nəfsinizdən
uzaq düşün!..

Hə, indi elə bir yerə gəlib çıxdıq ki, orda dediyim fikirin tutumu, çəkisi, necə deyərlər, son akkord kimi dayanır. Görürük ki, nəticə məntiq olaraq bu nöqtənin üstündə yox, həm də gözümüzün önündədir! Çünki fikir özünü təsdiq edir. O təsdiq də bu misralarda pıçıltı kimi ruhumuzu oxşayır:

...Bu dənizin sularını
balıqdlarından başqa
içən olmadı.

Yazı boyu paralel şəkildə müqayisəsini sizə təqdim etdiyim fikrin yaratdığı aura yəqin ki, sizi də öz ağuşuna aldı. Yəni siz də ,ən azından mənim qədər təbii ki, bir oxucu olaraq xəyallandınız.Yeri gəlmişkən deyim ki, məni də, sizi də xəyallandıran Kamal Abdullanın şeiri oldu. Bu xəyalların hələ nə qədər uzanacağını isə zaman ölçəcək!..